***ALİ MƏCLİSİN İCLASI***

*16 avqust 2024-cü il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini* ***Anar İbrahimov*** *sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputat həmkarlarım!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il növbədənkənar sessiyasının ikinci iclasına toplaşmışıq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının ikinci iclasında 31 deputat iştirak edir. Bu da iclasın keçirilməsi üçün yetərlidir.

| **Qeydiyyat** | (saat 11.03 dəq.) |
|---|---|
| İştirak edir | 31 |
| Yetərsay | 31 |

İclasda hökumət nümayəndələri də iştirak edir. Mən onları sizin adınızdan salamlayıram.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilir:

1. “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi.

2. “İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi.

Gündəliyə əlavəsi olan var?

Yoxdur!

Beləliklə, gündəliyi bu şəkildə səsə qoyuram.

Kim gündəliyin bu şəkildə təsdiq olunmasına tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 31 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 31 |
| Nəticə: Qəbul edildi | |

Gündəlikdə duran birinci məsələyə keçirik. Gündəlikdə duran məsələ ikinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir. Qanun layihəsi 14 avqust 2024-cü il tarixdə birinci oxunuşda müzakirə

edilmiş, söylənilmiş təklif nəzərə alınmaqla, onun üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul olunmuşdur. Layihənin birinci oxunuşda verilmiş təklifinə Ali Məclisin İqtisadi siyasət komitəsində baxılmışdır. Müzakirənin nəticəsi olaraq layihənin yenilənmiş variantı sonrakı oxunuşlar üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınmışdır.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz İqtisadi siyasət komitəsinin sədri hörmətli İsa İsayevə verilir.

Buyurun, İsa müəllim!

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli sessiya iştirakçıları!

Öncəliklə hamınızı salamlayıram.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin rəyini diqqətinizə çatdırıram. Qeyd etmək istəyirəm ki, 13 avqust 2024-cü il tarixdə İqtisadi siyasət komitəsinin "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsi ilə bağlı iclası keçirilmişdir. İclasda gündəliyə daxil olan məsələlərlə bağlı müzakirələr aparılmış və komitənin qərarları hazırlanmışdır. Həmin qərarlar 14 avqust 2024-cü il tarixdə birinci oxunuş üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasına təqdim edilmişdir. Birinci oxunuşda "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı təklif səsləndirilmişdir. Qeyd edilən təkliflə bağlı İqtisadi siyasət komitəsinin 16 avqust 2024-cü il tarixdə keçirilən iclasında müzakirələr aparılmışdır. Müvafiq təklif iclasda nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin 7-1-ci maddəsində dəyişiklik aparılmış, digər maddələrdə isə hər hansı bir dəyişiklik aparılmamışdır.

Yuxarıda qeyd edilənləri və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin İqtisadi siyasət komitəsi qeyd edir ki, təklif nəzərə alınaraq dəyişiklik olunmuş qanun layihəsi Ali Məclisin müzakirəsinə təqdim oluna bilər.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 31 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 31 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi əsas kimi ikinci oxunuşda da qəbul edildi.

Hörmətli həmkarlar,

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.4-cü maddəsinə uyğun olaraq təklif edirəm ki, qanun layihəsini etirazı olan varsa, maddə-maddə müzakirə edək, yoxdursa, ikinci oxunuşda qəbul edək. Bilirsiniz ki, prosedur bunu tələb edir, lakin biz yekdil qərarla bu prosedurdan imtina edə bilərik. Əgər etirazınız yoxdursa, bunu maddə-maddə səsə qoymayaq.

Yoxdur.

Deputatlardan kim qanun layihəsinin ikinci oxunuşda qəbul edilməsinə tərəfdardırsa, münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.08 dəq.) |
|---|---|
| Lehinə | 31 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 31 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi ikinci oxunuşda yekdilliklə qəbul edildi.

Mən bir təklifi də deputat həmkarlarımın diqqətinə çatdırmaq istəyirəm. Bu cür qanunlarda qanunun əsas məzmununa görə qanuna dəyişiklik edilirsə, o, üç oxunuşda qəbul olunur, lakin biz növbədənkənar sessiyaya yığışmışıq. Növbədənkənar sessiyanın formatı da fərqlidir və deputatların bir çoxunu da məzuniyyətdən geri çağırmışıq. Əgər etiraz etmirsinizsə, bu gün qanun layihəsini məhz üçüncü oxunuşda da səsə qoyaq.

Etiraz yoxdur?

Yoxdur.

Kim qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.09 dəq.) |
| Lehinə | 31 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 31 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun qəbul edildi.

Hörmətli deputatlar, gündəlikdə duran növbəti məsələyə keçirik. Bu, ikinci oxunuşda olan "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir. Qanun layihəsi 14 avqust 2024-cü il tarixdə birinci oxunuşda müzakirə edilmiş, Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul olunmuşdur.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz yenidən İqtisadi siyasət komitəsinin sədri İsa İsayevə verilir.

Buyurun, İsa müəllim!

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, diqqətinizə çatdırmaq istəyirəm ki, "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsində hər hansı bir dəyişiklik olmadığı üçün qanun layihəsi olduğu kimi saxlanılmışdır.

**Sədrlik edən.** Aydındır, çox sağ olun!

Qanun layihəsində heç bir dəyişiklik olmamışdır. İcazənizlə bu qanun layihəsini də ikinci oxunuşda səsə qoyuram və əgər etiraz etmirsinizsə üçüncü oxunuşunu da bu gün həyata keçirək. Etirazınız yoxdursa, bu cür formatda səsə qoyum.

Yoxdur.

Qanun layihəsinin ilk olaraq ikinci oxunuşda əsas kimi qəbul olunmasını səsə qoyuram. Kim "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.10 dəq.) |
| Lehinə | 31 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 31 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi əsas kimi ikinci oxunuşda da qəbul edildi.

Deputatlardan kim qanun layihəsinin ikinci oxunuşda qəbul edilməsinə tərəfdardırsa, münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.11 dəq.) |
|---|---|
| Lehinə | 31 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 31 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Üçüncü oxunuşda da səsə qoyulması üçün münasibət bildirməyinizi xahiş edirəm. Kim qanun layihəsinin qəbul edilməsinə tərəfdardırsa, münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 31 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 31 |
| Nəticə: Qəbul edildi | |

Beləliklə, qanun qəbul edildi.

Bilirsiniz ki, növbədənkənar sessiya qanun layihələrinin müzakirəsi və Mərkəzi Seçki Komissiyasının tərkibində dəyişiklik edilməsi üçün çağırılmışdı. Növbədənkənar sessiya gündəliyi müzakirə ediləndən sonra öz işini başa çatdırır. Bu, sonuncu iclasımız idi, yəqin ki, Ali Məclis bir daha bu tərkibdə yığışmayacaq. Hər birinizə gələcək fəaliyyətinizdə, həyatınızda uğurlar arzu edirəm. Son 30 ildə Ali Məclisdə, bəlkə də ən çox iştirak edən deputatlardan oldunuz. Ali Məclisdə işləmək həqiqətən qürurverici haldır, çünki Ali Məclis Ulu Öndərin adı ilə bağlı olan bir orqandır. Hamımız həyatımızın qalan hissəsində bu məclisdə deputat kimi olmaqdan və burada işləməkdən qürur hissi keçirəcəyik.

Çox sağ olun!

Bununla da növbədənkənar sessiyamız başa çatdı. Hər birinizə xoş istirahətlər arzu edirəm.

Sağ olun!